# "Bosco Conference" aprel ayının 15-16-da investisiya konfransı təşkil etdi

Bosco Conference şirkəti tərəfindən 15-16 aprel tarixdə Bakı şəhərində keçirilmiş "Invest-Pro Azerbaijan 2014" beynəlxalq sərgi-konfransda "Finansist" jurnalı media partnyoru kimi iştirak etdi.





Tədbir "JW Absheron Baku Hotel"-də sərgi-konfrans formatında keçirildi. Konfrans beynəlxalq investisiyaya, maliyyələşdirməyə, kapitalın idarəsi və artırılmasına, beynəlxalq strukturların quruluşuna həsr olunmuşdur. Sərgidə 20-dən çox beynəlxalq banklar, hüquqi, investisiya, auditor, konsaltinq şirkətləri təmsil olunurdu. Forumda 30 ölkədən 200 yaxın iştirakçı iştirak edirdi. "Bosco Conference" şirkəti 2005-ci ildə Ukrayna bazarında 8 ildən çox vergiqoyma, beynəlxalq maliyyə xidmətləri və konfrans xidməti mütəxəssisləri tərəfindən yaradılmışdır. Gələcəkdə şirkətin məqsədi müxtəlif ölkələrdə vergiqoyma haqda tam və obyektiv məlumatların çatdırılmasının təmin edilməsi, şirkətlərin qeydiyyatdan keçməsi və xidməti, hüququ leqal korporativ xidmətlər sxeminin qurulması, xarici banklarla əməkdaşlıq və beynəlxalq maliyyənin cəlb edilməsini nəzərdə tutur.

Təşkilatçılar Azərbaycana maraqlarını izah edərkən, ölkəni "Xəzər regionun boyük iqtisadiyyatı" adlandırdılar və neft-qaz sektorunu ölkənin iqtisadiyyatında əsas amili kimi vurğuladılar. Azərbaycan hakimiyyəti boyük investisiya proyektlərinin, yeni qazma qurğularının, neft emalı zavodlarının tikintisinin həyata keçirilməsini davam etdirir. "Azəri-Çıraq-Günəşli" neft yataqlarına görə, 2015-ci il üçün neft hasilatı günə 1.4mln. barrelə çatdırılacaq və təbii qaz hasilatı 15mlrd. kub metrdən 22 kubmetrə qədər artırılacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaxın onillikdə davamlı və tarazlı inkişafını təyin edən "Azərbaycan-2020: gələcəyə baxış" inkişaf konsepsiayası qəbul olunmuşdur.

***Nuriyyə Novruzova***



# GFAAFM və APFM arasında əməkdaşlıq üzrə memorandum imzalanıb

16 aprel 2014-cü il tarixində Gürcüstan Respublikasının Maliyyə Menecerləri, Auditorlar və Mühasiblər Federasiyası (GFAAFM) və Azərbaycan Respublikasının Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM) arasında əməkdaşlıq üzrə memorandum imzalanıb.

Memorandumu GFAAFM icraçı direktoru Yuri Papaskua və APFM prezidenti Nuriyyə Novruzova imzalayıb.

Memorandum çərçivəsində əsas fəaliyyət istiqamətləri kimi iki professional təşkilat arasında əlaqələrin möhkəmləndirilməsi, auditor, maliyyə və mühasibatlıq sahəsində çalışan kadrların IFAC-ın üzvlük tələblərinə müvafiq olaraq hazırlanması, təcrübə mübadiləsi əsasında peşəkar inkişafının təmin olunması üzrə birgə fəaliyyət planının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulur.



***Nuriyyə Novruzova***